UOT 94(479.24)

RAZİYƏ HACIYEVA
NDU-nun Azərbaycan tarixi kafedrasının II kurs magistrantı
raziyehaciyeva@icloud.com

İNGİLİSLƏRİN NAXÇIVANDA GENERAL-QUBERNATORLUQ YARATMAQ CƏHDLƏRİ VƏ NƏTİCƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/112/183-187

Bu məqalədə Birinci Dünya müharibəsindən sonrakı siyasi vəziyyət fonunda İngiltərənin Naxçıvan bölgəsində general-qubernatorluq yaratmaq cəhdləri elmi şəkildə araşdırılır. Tədqiqatda ingilis hərbi-siyasi missiyasının bölgədə nüfuz qazanmaq və idarəetməni nəzarətə götürmək niyyətinə xidmət edən addımları təhlil edilir. Məqalədə həmin təşəbbüsün yerli azərbaycanlı əhali, regional siyasi qüvvələr və beynəlxalq dairələr tərəfindən necə qiymətləndirildiyi, göstərilən müqavimət və diplomatik maneələr səbəbilə uğursuzluğa düçar olduğu göstərilir. Araşdırmanın nəticəsi olaraq müəyyən edilir ki, İngiltərənin Naxçıvan üzərində general-qubernatorluq qurmaq planı bölgənin real siyasi-milli mənzərəsinə uyğun gəlmədiyi üçün həyata keçirilməmişdir.

Açar sözlər: Naxçıvan, İngilislər, general-qubernatorluq, Cənubi Qafqaz, geostrateji maraqlar.

Giriş. Cənubi Qafqazda möhkəmlənməyə çalışan ABŞ və İngiltərə yaranmış siyasi şəraitdən istifadə edərək Naxçıvan və Zəngəzurda öz təsirlərini artırmağa cəhd edirdilər. ABŞ və İngiltərənin bu siyasi məqsədi həmin vaxt Azərbaycana qarşı əsassız ərazi iddiaları olan Ermənistanla onları birbirinə yaxınlaşdırdı. 1918-ci il oktyabrın 30-da Antanta və Osmanlı arasında imzalanmış Mudros sülh müqaviləsinə əsasən, Osmanlı qoşunlarının Cənubi Qafqazdan çıxması, böyük dövlətlərin bölgəni, o cümlədən Azərbaycanı zəbt etməsi üçün böyük fürsət oldu. Azərbaycanın işğalı Antanta dövlətləri adından Böyük Britaniyaya tapşırıldı. İngilis qoşunları general Tomsonun rəhbərliyi ilə Bakıya yürüşə başladı. Tomson Bakının general- qubernatoru elan edilir, ölkənin qalan əraziləri isə Azərbaycan hökumətinin nəzarətində saxlanılırdı. İngilis qoşunları noyabrın 17-də Bakıya daxil olur, qoşunun qalan hissələri isə Gəncə, Şuşa və Naxçıvanda yerləşdirildi. 1919-cu ilin yanvar ayında Böyük Britaniya ordusunun mayoru Hibbonun başçılığı ilə ingilis hərbi qüvvələrinin bir hissəsi Naxçıvana gəldi. Hibbonun Naxçıvana gəlməkdə məqsədi bölgənin iqtisadi və siyasi vəziyyətilə tanış olub, Araz-Türk Respublikası silahlı qüvvələrinin vəziyyətini və bu dövlətin siyasətinə türklərin təsir dərəcəsini öyrənmək olmuşdur (9, s.56).

Hibbonun ardınca həmin ilin fevralında digər ingilis nümayəndə heyəti kapitan Lautenin başçılığı ilə Naxşıvana gəlmişdi (6). Lauten ingilis qoşun hisələrini Naxçıvan, Culfa və Şahtaxtıda yerləşdirmiş və həmin ərazilərin artıq ingilislərin nəzarətində olduğunu elan etmişdir. Naxçıvan rəhbərləri ingilislərin bu təklifi ilə yalnız yerli muxtariyyəti saxlamaq şərti ilə razılaşdıqlarını bildirmişlər (7).

Lakin ingilislərin təşəbbüsləri bölgədə sabitlik yaratmağa kifayət etmədi. Lauten bölgədə vəziyyəti öyrənmək üçün Tiflis-İngilis hərbi komandanlığından göstəriş alaraq Naxçıvana gəlmiş, orada yerli əhalinin çoxluğunun müsəlmanlardan ibarət olduğunu bildirmişdir. 1919-cu ilin fevralın 1-də Azərbaycan stansiyasından ingilis ordusu Naxçıvana daxil oldu. Lauten buradakı hakimiyyətə nəzarəti öz üzərinə götürdüyünü bildirmiş və erməni dəstələrinin başçıları Primova və Qarakeşişova bölgənin britaniyalıların nəzarətində olduğunu çatdırmışdır.

Nəticə etibarilə, Naxçıvanda idarəçiliyi öz əllərinə alan ingilislər həm Araz-Türk Cümhuriyyətinin, həmdə Araz-Türk Cümhuriyyətindən sonra idarəetmənin həvalə olunduğu Naxçıvan Milli Komitəsini buraxmışdılar. Beləliklə də ingilislərin Naxçıvanda İngilis general-qubernatorluğunu elan etməsi ilə onların Naxçıvan bölgəsində yerləşmələrinin birinci mərhələsi yekunlaşdı. İngilis zabiti Lautenin general-qubernatorluğu şəraitində yaşayan bölgə əhalisi üçün bu dövr (1918-ci il fevralın 8-indən mayın 9-na qədər) İngilislərin Naxçıvanda möhkəmlənməsinin 2-ci dövrü hesab olunur. Əhali ingilis zabitlərinin təsiri altında yaşasa da, idarəetməni öz əllərində saxlamaq üçün çalışırdı.

1919-cu ilin əvvəllərində Naxçıvanda ictimai-siyasi durum həm ingilisərin bölgədəki siyasətindən, həm də ADR hökumətinin mövqeyindən asılı olmuşdur. Nəticədə M.Mirbağırov bölgədə siyasi sabitliyin təmin olunması üçün general-qubernatorluq idarə üsulunun yaradılmasının zəruriliyini vurğulamışdır.

Bununla da 1919-cu il fevralın 28-də Azərbaycan hökuməti tərəfindən Naxçıvan general-qubernatorluğu təsis edilmiş və onun tərkibinə Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar bölgələri daxil edilmişdir. Qurumun rəhbəri Bəhram xan Naxçıvanski, hərbi işlər üzrə isə Hacı Mehdi bəy Bağırov məsuliyyət daşıyırdı.

1919-cu ilin martından Andranikin silahlı dəstələrinin Naxçıvan sərhədlərində törətdiyi faciələr daha da artdı. Bu vaxt baş verən qırğınlar barədə ingilis polkovniki Temperley Londona raport göndərərək bildirmişdi ki, əgər Britaniya hərbi komandanlığı bu məsələyə müdaxilə etməsə, bölgədə ciddi qarşıdurmalar baş verəcək. 1919-cu ilin 3 aprel tarixində Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndəsi Fətəli xan Xoyski general Tomsona məktub ünvanlamışdı. Məktubda O, İrəvan quberniyasında qarşıdurmalar nəticəsində zərər çəkmiş azərbaycanlıların vəziyyətindən danışır və yardım tələb edirdi. Bunun üçün İngilis hakim dairələrinin kömək göstərməsi və müvafiq təminatların verilməsi xüsusi yer tuturdu. Britaniya hərbi komandanlığının Bakıya göndərdiyi cavab məktubunda qeyd olunurdu ki, 1.Sözügedən rayonlar hazırda Britaniya qubernatorunun tabeliyində olduğundan, təklif edilən nümayəndə heyətinin bölgəyə ezamı real nəticə verməyəcəkdir. 2.Qaçqınların Naxçıvan və digər ərazilərə geri qayıdışı planlaşdırılır və bu proses Britaniya komandanlığının nəzarəti altında, etnik və dini mənsubiyyətdən asılı olmayaraq həyata keçiriləcəkdir. 3. Qaçqınların yerləşdirilməsi tam başa çatdıqdan sonra Naxçıvan və digər bölgələrin idarə olunması Qarabağda Sultanovun general-qubernator statusu əsasında fəaliyyətə bənzər şərtlərlə Ermənistan hökumətinin təmsilçilərinə tapşırılacaqdır. 4.Qaçqınların yerləşdirilməsinə kömək etmək arzusunda olan şəxslərin İrəvanda general Devi ilə əlaqə saxlaya biləcəkləri bildirildi. 5. Dəmiryol fəaliyyətindəki çətinliklər səbəbindən nəzərdə tutulan nümayəndə heyətlərinə dəstək göstərmək mümkün olmayacaqdır (4, s.151).

Azərbaycan hökuməti bu qərarlardan narazılıq bildirmiş və qeyd etmişdi ki, qaçqınların yerinə qaytarılmaması, əslində ermənilərin mövqelərini gücləndirmək deməkdir. 1919-cu ilin aprelindən etibarən Naxçıvanda vəziyyət daha da gərginləşdi. Ermənistan bölgəni özünə tamamilə tabe etdirmək üçün yeni tədbirlər həyata keçirməyə başladı.

1919-cu ilin mayında Ermənistanın hərbi nümayəndələri Devi və İrəvandan olan digər qüvvələr Naxçıvanın Ermənistana birləşdirilməsi barədə danışıqlar apararaq saziş imzaladılar (8, s.74). İngilis nümayəndəsi Tomson bölgədə vəziyyəti müşahidə edərək Naxçıvanın Ermənistanın müvəqqəti nəzarətinə verilməsi ideyasını dəstəklədi. Xarici işlər naziri Fətəli xan Xoyski və M.Cəfərov Azərbaycan xalqının hüquqlarının pozulduğunu bildirərək Böyük Britaniya qoşunlarına rəsmi etiraz göndərdi (5). Azərbaycanın əzəli torpağı olan Naxçıvanda erməni idarəçiliyinin yaradılmasına qarşı AXC hər yolla mübarizə aparırdı.

1919-cu il mayın 14-də ingilis general-qubernatorluğunun təklifi ilə Naxçıvan stansiyasında general Devi və Ermənistanın baş naziri Q.Xatisyanla Naxçıvan Müsəlman Milli Şurasının sədri arasında görüş keçirildi (3, s.65). Görüşün sonunda Q.Xatisyan əhaliyə Naxçıvanın ingilislərin idarəsi ilə müvəqqəti olaraq Ermənistanın idarəçiliyinə verildiyi bildirdi. Lakin bölgədə müsəlman əhalinin çoxluq təşkil etməsi və onların açıq etirazları bu planın həyata keçirilməsini çətinləşdirdi. Əhali nümayəndələri bildirir ki, Naxçıvanın ermənilərə verilməsi bölgədə zorakılıqlara səbəb olacaq və beynəlxalq səviyyədə müsəlman dünyasının diqqətini cəlb edəcək. Azərbaycanın bu mövqeyi beynəlxalq güclərə, xüsusilə də Britaniya komandanlığına çatdırılmışdı. Britaniya hökumətinin mövqeyi isə ondan ibarət idi ki, ermənilərin idarəçiliyi yalnız müvəqqəti xarakter daşıyır. İngilislər əhalidə müəyyən qədər toxtaxlıq yaratmaq üçün bölgənin idarəsini Kəlbalı xana təklif edib, idarəçilikdə ona köməklik göstərəcəklərini vəd etdilər.Təbii ki,bu vədlər reallıqla heç cürə uzlaşmırdı.

Azərbaycan əhalisi ermənilərin bölgədə möhkəmlənməsinin qarşısını almaq və yaranmış problemləri beynəlxalq müstəvidə gündəmə gətirmək üçün səy göstərirdi. Naxçıvan bölgəsinin əhalisi ingilislərin başçılığı altında yaradılan erməni idarəçiliyinə qarşı kütləvi müqavimət göstərirdi. Bundan başqa, ADR Xarici İşlər Nazirliyi iyunun 22-də Təkinskiyə Naxçıvan və Ordubad əhalisinin müda-

fiəsi üçün əlavə tapşırıqlar vermiş, bu istiqamətdə diplomatik fəaliyyətin daha da gücləndirilməsini zəruri hesab etmişdir.

Azərbaycan rəhbərliyi problemin həllini yalnız iki dövlət arasında münasibətlərin normallaşdırılmasında deyil, həm də beynəlxalq nəzarətin təmin edilməsində görürdü. Bu dövrdə Azərbaycan hökuməti "Azərbaycan və Ermənistan arasında münasibətlərə dair istintaq komissiyasının yaradılması haqqında qanun layihəsi" hazırladı (2).

1919-cu ilin iyun-iyul aylarında Naxçıvan bölgəsində siyasi vəziyyət daha da kəskinləşmiş, Ermənistan hökumətinin zorakı tədbirləri nəticəsində bölgə əhalisi arasında ciddi narahatlıq yaranmışdı. Ermənistanın yaxın zamanda Naxçıvana hücum edəcəyi barədə xəbərlər gərginliyi artırmışdı. ADR Xarici İşlər Nazirliyi diplomatik kanallar vasitəsilə beynəlxalq nümayəndələri məlumatlandıraraq hadisələrin obyektiv qiymətləndirilməsini tələb etmişdi.

İngilis polkovniki Plauton və Amerika missiyası da vəziyyəti müşahidə edərək müsəlman əhalinin müdafiəsinin təmin olunmasının zəruriliyini qeyd etmişdir. 1919-cu ilin ortalarında ingilis hərbi dairələrinin bölgədən çıxacağı barədə yayılan xəbərlər ermənilər təşvişə salmışdı. Bu vaxt ingilislərin Cənub Qafqazdan getməsi barədə yayılan məlumatlar erməni silahlı dəstələrinin daha da fəallaşmasına şərait yaradırdı. Bu isə bölgədə yaşayan azərbaycanlı əhali üçün ciddi təhlükə idi.

Beləliklə həmin dövrdə Naxçıvanda baş verən hadisələr göstərir ki, erməni hərbi dairələrinin əsas məqsədi bölgəni zorakı yolla ələ keçirmək və əhalini deportasiya etməklə Ermənistan dövlətinin sərhədlərini genişləndirmək idi. Azərbaycan tərəfi isə həm diplomatik, həm də hərbi müstəvidə bu planların qarşısını almağa çalışırdı.

Naxçıvan bölgəsində ermənilərə qarşı təşkil olunmuş silahlı müqavimət müəyyən uğurlarla nəticələndi. 1919-cu il iyulun sonlarında və avqustun əvvəllərində baş verən döyüşlər zamanı yerli əhali ciddi fədakarlıq göstərərək erməni qüvvələrinə ağır zərbələr endirdi. Əlverişli mövqelərdən istifadə edən azərbaycanlı qüvvələr iyulun 25-də Şahtaxtı, Noraşen və digər strateji əhəmiyyətli mövqelərdə ermənilər məğlub edərək geri çəkilməyə məcbur etdilər. Bu döyüşlər nəticəsində çoxlu sayda hərbi sursat, o cümlədən pulemyot, top və zirehli qatar ələ keçirilmişdi. Bununla belə ingilislərin Naxçıvanı tərk etməsi və erməni idarəçiliyinin tamamilə iflasa uğraması reallaşdı. 1919-cu il avqustun 18-də ADR hökumətinin baş naziri N.Yusifbəyli parlamentdə çıxış edərək birdirmişdi ki, İrəvan quberniyasının bütün ərazilərində, o cümlədən Naxçıvanda yerli əhali öz qüvvələri ilə işğalçıları geri oturdaraq Azərbaycanla birləşmək iradəsini nümayiş etdirmişdir (1).

Lakin erməni qüvvələri geri çəkilməklə kifayətlənməyərək müəyyən istiqamətdə yenidən hücuma keçdilər. Xüsusilə Vedi bölgəsində gedən ağır döyüşlərdə azərbaycanlı qüvvələr böyük qəhrəmanlıq göstərmələrinə baxmayaraq, çoxlu itki verdilər. Ermənilərin təxribatçı fəaliyyəti, bölgədə zorakılıq və mülki əhaliyə qarşı həyata keçirilən repressiyalar siyasi vəziyyəti daha da gərginləşdirdi.

Bu hadisələrdən sonra beynəlxalq nümayəndəliklərin məsələyə diqqəti artdı. Böyük Britaniya və digər dövlətlərin regiondakı nümayəndələri vəziyyəti nəzarətdə saxlamağa çalışırdılar. 1919-cu ilin yayında Naxçıvan bölgəsində vəziyyət gərgin olaraq qalırdı. Ermənilərin idarəçilik təşəbbüsləri yerli əhali tərəfindən ciddi müqavimətlə qarşılandığından bu təşəbbüs uzunmüddətli sabitlik yarada bilmədi. Əksinə, bölgə əhalisinin öz müqəddəratını təyin etmək istiqamətində atdığı addımlar nəticəsində Naxçıvan sürətlə Azərbaycan Xalq Cümhuriyyəti ilə yaxınlaşmağa başladı. Arxiv materialları göstərir ki, həmin dövrdə Azərbaycan hökumətinin bölgədəki diplomatik nümayəndələri, həmçinin Qarabağ general-qubernatorluğu Naxçıvanın idarəçiliyində mühüm rol oynayırdılar. 1919-cu ilin sentyabrında Qarabağ general-qubernatoru tərəfindən hökumətə göndərilən məktubda Naxçıvanın Azərbaycan hakimiyyətini qəbul etməsi və erməni silahlı dəstələrinin təzyiqlərinə qarşı müqavimət göstərməsi barədə məlumat verilirdi (4, s.182). Bu fakt bir daha sübut edir ki, bölgə əhalisi erməni idarəçiliyini qəbul etmir, siyasi taleyini Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlamağa çalışırdı.

Eyni zamanda, Daxili İşlər Nazirliyinin hesabatlarında qeyd olunur ki, Naxçıvan general-qubernatorluğu yalnız siyasi yox, həm də inzibati idarə etməni öz əlində cəmləşdirməli idi. Həmin dövrdə Naxçıvan bölgəsində Azərbaycan hökumətini təmsil edən Səməd bəy Cəmillinski general-qubernatorun xüsusi tapşırıqları üzrə səlahiyyatlərlə təmin olunaraq fəaliyyətə başladı. Müvəqqəti olaraq iqamətgahı Ordubadda yerləşsə də, sonradan Naxçıvana köçürüldü. Naxçıvan general-qubernatorluğunun fəaliyyəti nəticəsində Naxçıvan və Şərur-Dərələyəz bölgələrində yerli özünüidarə

strukturları möhkəmləndirildi, zəruri dövlət idarələri açıldı. Xəlil bəy diyar qoşunlarının baş komandanı, III Kəlbalı xan isə həm onun köməkçisi, həm də Naxçıvan qoşun dəstəsinin komandiri vəzifəsini icra edirdi. Bundan əlavə, Qarabağ general-qubernatorluğu tərəfindən bölgədə hərbi qüvvələrin və yerli hakimiyyətin fəaliyyətinin gücləndirilməsi üçün xeyli vəsait ayrılmışdı.

Ümumilikdə, 1918-ci ilin noyabrından 1919-cu ilin avqustuna qədər Naxçıvanın siyasi həyatı mühüm proseslərlə müşayiət olunmuş, xüsusilə ingilislərin bölgədə möhkəmlənmək siyasəti fonunda Azərbaycan hökumətinin idarəçilik təşəbbüsləri diqqət mərkəzində dayanmışdır. Tədqiqatlar göstərir ki, bu dövr Naxçıvanda ingilislərin təşəbbüsü ilə qurulmağa səy göstərilən erməni idarəçiliyinin iflasa uğraması, Azərbaycan hakimiyyətinin isə möhkəmlənməsi ilə səciyyələnmişdir.

Nəticə. Birinci Dünya müharibəsindən və Cənubi Qafqazda imperiya idarəçiliyinin süqutundan sonra bölgədə yaranan siyası boşluq beynəlxalq qüvvələrin, xüsusilə də İngiltərənin maraqlarını cəmləşdirdi. 1918-1919-cu illərdə İngilislər regionda öz strateji mövqelərini möhkəmləndirmək məqsədilə Naxçıvanda general-qubernatorluq yaratmaq cəhdinə girişdilər. Bu təşəbbüs, bir tərəfdən, bölgənin geosiyasi və hərbi əhəmiyyətindən, digər tərəfdən isə Bakı neftinə və Cənubi Qafqaz dəmir yolu xəttinə nəzarət etmək istəyindən qaynaqlanırdı. İngilislərin Naxçıvanda dayanıqlı idarə forması qurmaq niyyəti nəticəsiz qaldı və 1919-cu ilin sonlarına doğru regionda onların təsiri azalmağa başladı. Nəticədə, Naxçıvanın siyası taleyinin müəyyənləşməsi yerli və milli qüvvələrin fəallığı, həmçinin beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər fonunda baş verdi. Bu hadisə Cənubi Qafqazda xarici müdaxilələrin uğursuzluğunu və Azərbaycan dövlət iradəsnin gücünü nümayiş etdirən mühüm tarixi epizod kimi qiymətləndirilir.

ƏDƏBİYYAT

1. «Азербайджан» qəzeti 10 sentyabr 1919-cu il.
2. ARMDA, f.970, siy.1, iş 83, v.17.
3. Hacıyev A. Qars və Araz-Türk Respublikasının tarixindən. Bakı: Azərnəşr, 1994, 119 s.
4. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, Bakı Universiteti Nəşriyyatı. 1998, 385 s.
5. Naxçıvan tarixi. III cilddə. II cild. Naxçıvan, "Əcəmi", 2014, 528 s.
6. NMRDA, f.314, siy.5, iş 67, v.24.
7. NMRDA, f.314,siy.5,iş 67,v.26.
8. Zamanov E. Cənubi Qafqazda ictimai-siyasi vəziyyət və Azərbaycanın xarici siyasəti (1918-1920-ci illər). Bakı, Elm və təhsil, 2011, 176 s.
9. Мадатов Г. Победа Советской власти и Нахичеванской АССР. Баку, 1968, с.56.

РАЗИЯ ГАДЖИЕВА
Магистрант II курса кафедры истории Азербайджана НДУ

ПОПЫТКИ АНГЛИЧАН СОЗДАТЬ ГЕНЕРАЛ-ГУБЕРНАТОРСТВО В НАХЧЫВАНЕ И ИХ РЕЗУЛЬТАТ

В статье рассматриваются попытки Великобритании создать генерал-губернаторство в Нахчыване и геополитическое значение региона. Британская инициатива преследовала цель расширить сферу влияния в Южном Кавказе и предотвратить усиление большевистского влияния. Однако сопротивление местного мусульманского населения и притязания армянских вооружённых групп значительно затруднили осуществление британских планов. Из-за невозможности обеспечить стабильность управления в короткие сроки британская администрация начала терять контроль над регионом. В результате проект генерал-губернаторства завершился полным провалом, и дальнейшая политическая судьба Нахчывана оказалась в руках местных сил.

Ключевые слова: Нахчыван, Англичане, генерал-губернаторство, Южный Кавказ, геостратегические интересы.

RAZIYA HAJIYEVA
Second-year master's student of the Department of Azerbaijani History at NDU

THE BRITISH ATTEMPTS TO ESTABLISH A GENERAL-GOVERNORSHIP IN NAKHCHIVAN AND THEIR OUTCOME

The article examines Britain's attempts to establish a general-governorship in Nakhchivan and the geopolitical significance of the region. The British initiative aimed to expand the empire's sphere of influence in the South Caucasus and prevent the spread of Bolshevik power. However, resistance from the local Muslim population and the territorial claims of Armenian armed groups greatly hindered the implementation of British plans. The inability to establish administrative stability in a short period led the British authorities to gradually lose control over the region. As a result, the general-governorship project ended in complete failure, and the subsequent political destiny of Nakhchivan came under the influence of local forces.

Keywords: Nakhchivan, the British, general-governorship, South Caucasus, geostrategic interests.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 dekabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.e.d. Xəzər Hüseynov, t.e.d. Qabil Əliyev.